I BÖLMƏ
MALİYYƏ MÜNASİBƏTLƏRİ, İNVESTİSİYA

UOT 336

Emin Rahib oğlu KAZIMOV
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı
E-mail: eminkazimov044@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2026.005.001

MÜƏSSİSƏNİN MALİYYƏ SABİTLİYİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ONUN FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

Xülasə

Tədqiqatın məqsədi – şirkətin fəaliyyətinin nəticələrinə əsaslanan maliyyə hesabatları əsasında müəyyən olunmuş əmsal göstəriciləri sistemini təhlil etmək, reytinq qiymətləndirmə metodu, müflisləşmə ehtimalının qiymətləndirilməsi əsasında respublikanın iqtisadi subyektlərində maliyyə sabitliyinin müasir vəziyyətini qiymətləndirmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir.

Tədqiqatın metodologiyası – sistemli yanaşma, fundamental təhlil və adekvat informasiya.

Tədqiqatın tətbiqi əhəmiyyəti – iqtisadi subyektlərdə maliyyə davamlılığının təhlili prosesində elmi-nəzəri mənbə qismində istifadə imkanları.

Tədqiqatın nəticələri – müasir şəraitdə respublikanın iqtisadi subyektlərində maliyyə sabitliyinin təhlilinin inkişafı istiqamətləri qiymətləndirilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Azərbaycanda maliyyə sabitliyinin təhlili metodologiyasının və metodikasının təkmilləşdirilməsi.

Açar sözlər: maliyyə sabitliyi, ödəmə qabiliyyəti, maliyyə dayanıqlığının qiymətləndirilməsi, reytinq qiymətləndirmə.

Giriş

Maliyyə sabitliyi – mütəmadi olaraq müəssisənin gəlirlərinin onun xərclərindən artıq olmasını, pul vəsaitlərinin sərbəst manevrliyini və məhsul istehsalı və satışı prosesində onlardan səmərəli istifadəni səciyyələndirir. Məsələyə bu aspektdən yanaşaraq qeyd etmək olar ki, təsərrüfat subyektinin maliyyə sabitliyi onun bütün fəaliyyəti prosesində formalaşır və müəssisənin ümumi sabitliyinin əsas komponenti hesab edilir.

Maliyyə sabitliyi müəssisənin pul vəsaitlərindən səmərəli istifadə etməklə istehsal və satış prosesinin fasiləsizliyini, eləcə də, minimum və ya sabit məsrəflərlə istehsalın genişləndirilməsini təmin edəcək həcmdə maliyyə resursunun mövcud olmasıdır. Hazırda mühüm problemlərdən biri müəssisənin maliyyə sabitliyinin həddinin müəyyən edilməsidir. Belə ki, müəssisənin maliyyə dayanıqlığının lazımi səviyyədə olmaması onun fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi üçün vəsaitin çatışmazlığı, ödəmə qabiliyyətinin itirilməsi, beləliklə də, müəssisənin müflisləşməsilə nəticələnə bilər [1, s.58; 2, s.232-233]. Eyni zamanda, maliyyə resurslarının artıqlığı müəssisədə lüzumsuz ehtiyatların yaradılmasına, artıq məsrəflərə səbəb olur və onun fəaliyyət miqyasının genişləndirilməsinə mane olur. Vurğulamaq yerinə düşər ki, təsərrüfat subyektinin maliyyə sabitliyini qiymətləndirmək üçün onun maliyyə vəziyyətinin kompleks qiymətləndirilməsinin həyata keçirilməsi zəruridir. Qeyd etmək lazımdır ki, maliyyə vəziyyəti maliyyə resurslarının mövcudluğunu, onların düzgün yerləşdirilməsi və istifadəsini əks etdirən göstəricilərin məcmusunu ifadə edir.

Maliyyə sabitliyi anlayışı və onun iqtisadi məzmunu

Maliyyə sabitliyi göstəricisi müasir bazar şəraitində şirkətin maliyyə-təsərrüfat fəaliyyətini xarakterizə edən aparıcı göstəricilərdən biri hesab olunur. Müəssisənin maliyyə sabitliyinə müxtəlif amillər təsir göstərir:

- əmtəə bazarında müəssisənin vəziyyəti;
- geniş tələbata malik ucuz mallar istehsal etməsi;
- işgüzar əməkdaşlıqda müəssisənin potensialı;
- xarici investor və kreditorlardan maliyyə asılılığı səviyyəsi;
- ödəmə qabiliyyəti olmayan debitorların mövcudluğu;
- təsərrüfat və maliyyə əməliyyatlarının səmərəliliyi və s. [2, s.59].

Maliyyə dayanıqlığına malik təşkilatlar digər təşkilatlarla müqayisədə investisiya resurslarının və borc vəsaitlərinin cəlb olunması, eləcə də, malgöndərənlərlə və digər kontragentlərlə iş zamanı seçmək imkanı baxımından böyük üstünlüklərə malikdir. Xüsusi ədəbiyyatlarda maliyyə sabitliyinin müəyyən olunmasında istifadə olunan maliyyə əmsallarına münasibətdə fərqli yanaşmalara rast gəlinir. Belə ki, aparıcı rus iqtisadçısı Q.V.Savitskaya hesab edir ki, şirkətin maliyyə-iqtisadi vəziyyəti, müvafiq olaraq, onun maliyyə sabitliyi tənzimləyici vəsait mənbələri ilə təmin olunan material dövriyyə vəsaitlərinin kafiliyini səciyyələndirən göstəricilərlə müəyyən olunur və bura yalnız xüsusi dövriyyə kapitalı deyil, eləcə də, müəyyən dövrə şirkətin əmtəə-material qiymətlilərinin tamamlanması üçün alınmış bankın borc vəsaitləri, mal göndərənlərə normalaşdırılmış kreditor borcları, xidmət və mallara görə alıcıların uçota alınmış avansları da daxil edilir. O, maliyyə vəsaiti mənbələrinin həcmi ilə material dövriyyə aktivlərinin həcminin müqayisə olunması yolu ilə hesablanır [10].

Bir qrup iqtisadçılar belə hesab edirlər ki, şirkətin maliyyə sabitliyi bazar dəyişikliklərinin və kontragentlərin gözlənilməz davranışının təsirinə cavab verəcək stabil ödəmə qabiliyyətini xarakterizə edir. Şirkətin maliyyə sabitliyinin qiymətləndirilməsi likvidlik əmsalı, örtülmə əmsalı, cari likvidlik parametri əsasında aparıla bilər [5]. Şirkətin maliyyə sabitliyi bir tərəfdən özünün xüsusi vəsaitləri hesabına, digər tərəfdən cəlb edilmiş vəsait hesabına maliyyə balansının saxlanması nəzərə alınmaqla ödəmə qabiliyyətinin gözlənilməsidir. Şirkətin maliyyə sabitliyi elə bir qaydanı nəzərdə tutur ki, bu zaman istehsal prosesinə yönəldilmiş cəlb olunmuş resurslar pul gəlirləri hesabına örtülür, əldə olunmuş mənfəət özünümaliyyələşdirmə vasitəsinə çevrilir ki, bu da şirkətin aktivlərin yaradılması üzrə kənar resurs mənbələrindən asılılığını azaldır [7].

Müəssisənin maliyyə sabitliyinin təhlili metodikası

Şirkətin maliyyə sabitliyinin müəyyən olunmasının birbaşa vəzifəsi ölkə və xarici mütəxəssislər tərəfindən tədqiq edilmişdir. Maliyyə sabitliyi anlayışının mahiyyəti üzrə vahid fikir formalaşmamışdır. Hazırda mövcud metodikaları üç qrupa bölmək olar: kəmiyyət qiymətləndirilməsi; keyfiyyət qiymətləndirilməsi; qeyri-maliyyə sabitliyinə malik təşkilatların bilavasitə qiymətləndirilməsi. Birinci qrupa aid metodikanın əsas məğzi təşkilkatın maliyyə sabitliyinin hansı növünə aid olmasını müəyyən etməkdir. Bu sahədə nəşr olunmuş ədəbiyyatlarda maliyyə sabitliyinin dörd tipi fərqləndirilir: mütləq, normal, qeyri-stabil və böhranlı (cədvəl 1) [11].

Bu zaman şirkətin maliyyə-təsərrüfat fəaliyyətinin yekun maliyyə nəticələrinə və istehsalın səmərəliliyi səviyyəsinə təsir göstərən, onun stabil fəaliyyət göstərməsi üçün zəmin formalaşdıran bütün maliyyə növləri arasında qarşılıqlı əlaqənin mövcudluğu nəzərə alınmalıdır. Əlbəttə, təşkilatlar özünün inkişafının bütün dövrlərində qeyd olunan bütün mərhələlərdən, yaxud bir və ya iki mərhələdən keçə bilər. Praktikada mütləq maliyyə sabitliyinə nadir hallarda rast gəlmək olar.

Şirkətin birbaşa ödəmə qabiliyyəti onun dərhal maliyyə sabitliyinə dair iki əsas qiymətləndirməni formalaşdırır [8]:

1. Mövcud resurslarla ehtiyat və xərclərin örtülməsi dərəcəsinə əsaslanan maliyyə sabitliyinin xarakteristikası:

$$E \leq (X^V + K^r K^b) - Ə^v K$$

Cədvəl 1.

Müəssisənin maliyyə sabitliyinin tipologiyası

Maliyyə sabitliyinin növləri	Xrakteristikası	Əsas göstəricilərin nisbəti
Mütləq	Yüksək dərəcədə likvidlik və ödəmə qabiliyyətliliyi	Ehtiyat və xərclər < Xüsusi dövriyyə vəsaitləri
Normal	Ödəmə qabiliyyətliliyi təmin edir	Xüsusi dövriyyə vəsaitləri < Ehtiyat və xərclər < Xüsusi dövriyyə vəsaitləri + Uzunmüddətli passivlər
Qeyri-stabil maliyyə sabitliyi	Ödəmə qabiliyyətinin pozulması ilə müşayət olunur, lakin xüsusi vəsait mənbələrinin tamamlanması və borc vəsaitlərinin cəlb edilməsi hesabına tarazlığın bərpa olunması imkanının saxlanılması mümkündür	Xüsusi dövriyyə vəsaitləri + Uzunmüddətli passivlər < Ehtiyat və xərclər < Xüsusi dövriyyə vəsaitləri + Uzunmüddətli passivlər + Qısamüddətli kredit və borclar
Böhranlı (iflasdan əvvəl) maliyyə sabitliyi	Müflisləşməyə yaxındır, pul vəsaitləri, qısamüddətli qiymətli kağızlar və debitor borcları kreditor borclarını və ödəmə vaxtı ötüş ssudaları örtmür	Xüsusi dövriyyə vəsaitləri + Uzunmüddətli passivlər + Qısamüddətli kredit və borclar < Ehtiyat və xərclər

Burada, E – ehtiyatlar, X^V –xüsusi vəsaitlər, K^rK^b – uzunmüddətli kreditlər və borc kapitalı, $Ə^vK$ – əsas vəsaitlər və kapital.

2. Mövcud resurslarla əsas vəsaitlərin və digər qeyri-maddi aktivlərin örtülməsi dərəcəsinə əsaslanan maliyyə sabitliyinin xarakteristikası:

$$Ə^vK \leq (X^V + K^rK^b) - E$$

Burada, $X^V + K^rK^b$ – şirkətin kapitalının həcmidir.

Maliyyə sabitliyinin qiymətləndirilməsinə hər iki yanaşma sabitliyin aşağıdakı məlum düsturuna əsaslanır:

$$Ə^vK + E < (X^V + K^rK^b)$$

Beləliklə, belə fikir formalaşdırmaq olar ki, əsas vəsaitlərə və material, mal və xammal ehtiyatlarına yönəldilən kapitalın həcmi onun xüsusi kapitalından və ya ona aid edilən kapitalın həcmindən çox ola bilməz.

Maliyyə sabitliyi göstəricisi şirkətin inkişafının dinamikası haqqında təsəvvür yaratmır, növbəti hesabat dövrünə onun maliyyə sabitliyinin vəziyyətini proqnozlaşdırmağa imkan vermir, eləcə də, rəhbərlik üçün göstəricilərin lazımi diapozonda saxlanması ilə bağlı təkliflərin hazırlanması çətindir. Sözügedən məsələlər ayrı-ayrı təşkilat kəsiyində onun fəaliyyət istiqamətlərinin mövcud xüsusiyyətləri, aktivlərinin və passivlərinin strukturu nəzərə alınmaqla maliyyə sabitliyinin fərdi göstəricilərinin hesablanmasına əsaslanan kəmiyyət qiymətləndirilməsi metodları ilə həll olunur. Şirkətin maliyyə-iqtisadi sabitliyinin nəzərdən keçirilməsi və qiymətləndirilməsinin bilavasitə onun müəyyən əmsallar sistemi və maliyyə göstəriciləri əsasında (müxtəlif göstəricilərin qruplaşdırılması əsasında) həyata keçirilməsi məqsədəuyğundur.

Birinci qrupa müəssisənin maliyyə təminatının səmərəliliyini səciyyələndirən əmsallar (xüsusi ilə, dövriyyədə xüsusi kapitalın payı əmsalı) daxildir.

İkinci qrup göstəricilər bilavasitə şirkətin maliyyə dəstəyinin səmərəliliyini əks etdirir. O, maliyyə təminatının müstəqilliyi, maliyyə resurslarının manevrliyi, şirkətin dövriyyə aktivlərinin

tərkibində xüsusi kapitalın payı, ehtiyat və xərclərin strukturunda xüsusi maliyyə aktivlərinin kafiliyi, xüsusi və borc kapitalının nisbəti əmsalları, kreditor borclarının həcmi ilə xarakterizə olunur.

Üçüncü qrup göstəricilər şirkətin maliyyə təminatını səciyyələndirir, daha doğrusu, maliyyə vəziyyətinin sabitliyinin gün hesabı ilə ifadə olunan vaxt göstəricisi olmaqla ehtiyatların hər min manatına düşən dövriyyə vəsaitlərinin həcmini xarakterizə edir.

Dördüncü qrupa istehsal tsiklinin xüsusiyyətlərini xarakterizə edən əmsallar daxildir: bilavasitə istehsal prosesi üçün nəzərdə tutulmuş uzunmüddətli və qısamüddətli aktivlərin nisbəti.

Beşinci qrupa likvidlik göstəriciləri, eləcə də, kreditor qarşısında ödəmə vaxtı ötmüş borcların yaranması riskinin mövcudluğunu əks etdirən göstəricilər daxildir.

Yuxarıda qeyd olunan əmsalların dinamikada hesablanması şirkətin maliyyə sabitliyinin yüksəldilməsi üzrə qəbul olunan tədbirlərin səmərəliliyini artırmağa imkan verəcəkdir. Göstəricilərin sistemləşdirilməsi şirkətin maliyyə sabitliyinin fasiləsiz manitorinqinin aparılması üçün baza rolunu oynaya bilər.

Şirkətin maliyyə sabitliyinin qiymətləndirilməsi metodlarından biri də əsasını müəyyən göstəricilər təşkil edən reytinq qiymətləndirmə metodudur. Bu metodun metodiki əsasını maliyyə sabitliyi üzrə müxtəlif şirkətlərin reytinq əmsallarının, daha sonra, etalon müəssisənin oxşar göstəricisi ilə müqayisəsi təşkil edir [1, s.312-314; 2, s.96-101;]. Reytinq qiymətləndirmənin hesablanması üçün vaxt kəsiyində əmsalların artım tempi əmsallarından istifadə olunur [9]:

$$\frac{T_1}{T_0}$$

burada, T_0, T_1 – göstəricinin müvafiq olaraq dövrün əvvəlinə və sonuna kəmiyyəti.

Belə bir məsələni də vurğulamaq yerinə düşər ki, bəzi iqtisadçı alimlər şirkətin maliyyə vəziyyəti göstəriciləri istisna olmaqla maliyyə sabitliyi göstəricilərinin hesablanması və təhlili zamanı təşkilatın mümkün qeyri-maliyyə sabitliyinin qiymətləndirilməsi üzrə məsələlərə xüsusi diqqət yetirirlər. Belə ki, bir qrup iqtisadçılar şirkətin iflasının mümkünlüyünü qiymətləndirmək üçün ehtiyatların və daha likvid aktivlərin məcmu aktivlərə nisbəti göstəricisindən istifadəni tövsiyə edirlər və həmin əmsalın məqbul həddi sıfırdan böyük olmalıdır. Bu əmsalın yüksək olması şirkətin müflisləşmə prosesinin mümkünlüyünün aşağı olmasını göstərir [7].

Xarici mənbələrdə şirkətlən müflisləşməsi ehtimalının qiymətləndirilməsi məqsədi ilə çoxsaylı metodikalara rast gəlmək mümkündür. Bura təşkilatların mümkün müflisləşməsi və müflisləşməməsi üzrə təsnifləşdirilməsinə əsaslanan Altmann “Z-hesablama” modelini, J.Konan və M.Qolder metodikası, Qordon L.V. və Sprinqeyt, R.Taffler və Q.Tişou, Lis və digər modelləri aid etmək olar [1, s.375-376; 2, s.103-108; 6]. Dünya təcrübəsində təşkilatın ödəmə qabiliyyəti və maliyyə sabitliyinin qiymətləndirilməsi məqsədi ilə geniş istifadə olunan metodun tətbiqində xüsusi kapitaldan istifadənin rentabelliyinə təsir göstərən kredit resurslarından istifadəni səciyyələndirən leviric göstəricisindən istifadə olunur. Bu göstərici təşkilatın mənfəətinin artmasına nail olmaq üçün tələb olunan maliyyə resursları ilə əlaqələndirilir, uzunmüddətli öhdəliklərin həcmində və strukturunda dəyişikliklər nəticəsində mənfəətin artması potensialını əks etdirir.

Təşkilatın maliyyə sabitliyinə təsir göstərən prosesləri təhlil edərək aşağıdakıları qeyd etmək olar: əməliyyat mühitinin çevikliyi, innovativ layihələrin tətbiqi, böyük həcmli investisiya imkanı və mövcudluğu, yeni bazarların əldə olunması qabiliyyəti, həyta keçirilən xarici və daxili restrukturizasiya. Bütün bunlar təşkilatın maliyyə sabitliyinin artırılması məqsədi ilə yüksək riskli biznesproseslərin üç blokdan ibarət qiymətləndirmə metodikasının hazırlanması zamanı müəllif üçün baza rolunda istifadə olunub (şək.1).

Təşkilatın maliyyə sabitliyini artırmaq üçün istifadə olunan risklərin idarə olunması prinsipləri aşağıdakı şərtlər daxilində maliyyə göstəricilərinə düzəlişlər şəklində əks-əlaqənin həyata keçirilməsi ilə mövcud risklərin davamlı monitorinqini tələb edir:

- təşkilatın maliyyə sabitliyini artırmaq üçün risklərin birbaşa idarə edilməsi prosesinin reqlamentini tərtib etmək;

- təşkilatın maliyyə sabitliyini təmin etmək üçün mümkün risklər haqqında məlumatları təqdim etməklə cari nəzarətin həyata keçirilməsi;
- təşkilatın işində cari proseslərin formalaşdırılması üçün zəruri olan risklərin müəyyən edilməsi və təsnifləşdirilməsi;
- təşkilatın inkiçaf yolunu anlamaq üçün birbaşa risklərin qiymətləndirilməsinin aparılması;
- risklərin qiymətləndirilməsinin monitorinqi təşkilatın aktivlərinin keyfiyyətinə təsir edən cari və davamlı prosesdir;
- risklərin müəyyən olunması mexanizminin əhəmiyyətindən və onlara səbəb ola biləcək potensial problemlərdən asılı olaraq hazırlanmasına imkan verən balanslaşdırılmış və dəqiq risk qiymətləndirilməsi;



Şəkil 1. Təşkilatın maliyyə dayanıqlığının yüksəldilməsi üçün yüksəkriskli biznes proseslərin qiymətləndirilməsi metodikası

Mənbə: şəkil müəllif tərəfindən tərtib edilmişdir

- risk növünün müəyyən edilməsi və təşkilat üzrə birbaşa qiymətləndirilməsi üçün sistemli yanaşmanın tətbiqi.

Bütün bunlar təşkilatın həm kənar, həmçinin də daxili mühitində onun maliyyə sabitliyini dəyişdirə biləcək əsas hadisələri identifikasiya etməyə, qeyri-sabit və ya böhran vəziyyətinin yaranmasına səbəb olan amillərin sistemləşdirilməsi məqsədi ilə risklərin müəyyən edilməsi və sonrakı təhlili prosesinin unifikasiya olunmasına imkan verir, təşkilata xas olan risklərin tipologiyasının identifikasiyasını və aşkar edilməsini mümkün edən inkişaf məqsədlərinin xarakterini dərk edir. Təşkilatın maliyyə sabitliyinin qiymətləndirilməsinin nəzərdən keçirilən üsulları əyani olaraq göstərir ki, birinci qrup metodlar çərçivəsində maliyyə-iqtisadi stabilliyin keyfiyyət qiymətləndirilməsinə nail olmaq mümkündür ki, bütün bunlar təşkilatın ödəmə qabiliyyəti səviyyəsini əks etdirən maliyyə sabitliyinin xüsusiyyətlərinin əhəmiyyətli siyahısını təqdim edir. Müxtəlif vaxt kəsiyində təşkilatların müqayisəsinin mümkünsüzlüyü maliyyə sabitliyinin keyfiyyət xarakteristikasının çatışmazlığını göstərir. Maliyyə sabitliyinin kəmiyyət qiymətləndirməsinin aparılması vasitəsi ilə birinci qrupa daxil olan keyfiyyət metodlarının çatışmazlıqlarını aradan qaldırmaq olar. Mövcud olan kəmiyyət qiymətləndirmə metodlarının əsas mürəkkəbliyi təhlil olunan sahənin təşkilatları üçün xarakterik olan normal məhdudiyyətlərin qəbul edilməsidir.

Hazırda daha dəqiq nəticələr əldə etmək üçün maliyyə sabitliyinin qiymətləndirilməsinin müxtəlif metodlarının simbiozundan istifadə edilən hibrid üsullardan geniş istifadə olunur. Təşkilatda baş verən proseslərin səbəb-nəticə əlaqələrinin təhlilinin zəruriliyi hibrid yanaşmadan istifadənin məqsədini əks etdirir.

Nəticə

İqtisadi nəzəriyyə və praktikada bir-birindən istifadə olunan göstəricilər sistemi və hesablama metodları ilə fərqlənən, təşkilatın maliyyə dayanıqlığının müəyyən olunmasına istiqamətlənmiş geniş spektrli metodoloji tövsiyələr təklif olunur. Hesablamaların aparılması üçün vahid metodoloji yanaşmaların və nəzəri funksional əsasların olmaması, səbəb-nəticə göstəriciləri ilə əlaqəli hesablama və ya müəyyən olunan amilin yuxarı hədləri təyin olunmamış hesablamalar sisteminin tətbiqi, göstəricilər sisteminin qurulması parametrlərinin və prinsiplərinin tədqiqi və onların sonrakı hesablanması metodikasının olmaması onların əhəmiyyətli çatışmazlıqlarını səciyyələndirir.

Maliyyə dayanıqlığının qiymətləndirilməsi istənilən təşkilatın işinin tərkib hissəsidir. Bu istiqamətdə analitik göstəricilərin seçilməsi əsasən təşkilatın məqsədlərindən və vaxt məhdudiyyətlərindən asılıdır. Qeyd etmək lazımdır ki, əksər kiçik və orta sahibkarlıq subyektləri üçün qısamüddətli maliyyə sabitliyinin qiymətləndirilməsi üçün mütləq və nisbi göstəricilərdən istifadə olunması və inteqral göstəricinin hesablanması mühüm əhəmiyyət kəsb edir. Daha iri şirkətlərdə bu məsələnin qiymətləndirilməsi üçün amil, indeks təhlilindən və digər metodlardan istifadə edilməlidir. Eyni zamanda, uzunmüddətli perspektivə hadisələrin başvermə ehtimalı nəzərə alınmaqla proqnozlaşdırma metodlarından istifadə olunması məqsədəuyğundur. Bu, idarəetmə qərarlarının qəbul edilməsi üçün təşkilatın maliyyə vəziyyəti və onun maliyyə sabitliyi haqqında operativ informasiyanın əldə edilməsinə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Ələkbərov Ə., Cəfərli H.A. Maliyyə təhlili. Dərslik. – Bakı. UNEC. 2025
2. Müslümov S.Y., Kazımov R.N. Maliyyə təhlili. Dərslik. – Bakı, CBS, 2011
3. Quliyev V.M., Fətullayev R., Kərimov A.M. “Beynəlxalq mühasibatlığa giriş”., (GAAP və IFRS əsasında). Beynəlxalq uçot və hesabatı sərbəst şəkildə öyrənmək istəyənlər üçün vəsait, Bakı. İATM. 2021
4. Salahov Ə.S., Mehdiyev V.M. Mühasibat uçotu. Dərslik. – Bakı, “3 saylı Bakı Mətbəəsi”. 2016
5. Абрютина М.С., Грачев А.В. Анализ хозяйственной деятельности предприятия: учебник. – М.: 2017
6. Жукова Т.М., Кондратьева К.С. Современные особенности применения экономических моделей диагностики вероятности наступления банкротства юридических лий //Вестник Пермского Университета. Юридические науки. – 2014. - №1. – с.197-205
7. Ковалев В.В. Финансовый анализ: Управление капиталом. Выбор инвестиций. Анализ отчетности. – М.: Финансы и статистика, 2015
8. Липчанская К.Ю., Байгулова О.В. Алгоритм оценки финансовой устойчивости компании при определении ее инвестиционной привлекательности //Наука и образование: хозяйство и экономика; предпринимательство; право и управление. – 2019. – №1. – с.41-45
9. Полухина И.В., Сиверина Ю.Л. Анализ типов финансовой устойчивости организации и характеристика подходов к ее оценке // Апрельские научные чтения проф. Л.Т.Гиляровской: материалы VII Междунар.науч.-практ.конф. – 2018, – с.261-266
10. Савицкая Г.В. Анализ хозяйственной деятельности предприятия: учебник. – Минск: РИПО. 2019
11. Шеремет А.Д., Сайфулин Р.С. Методика финансового анализа: учебное пособие. – М.: ИНФРА-М. 2017

Эмин Рагиб оглы Казимов
Докторант
Азербайджанский Государственный Экономический Университет

Анализ и оценка финансовой стабильности предприятий как средство повышения его эффективнсти

Резюме

Целью исследования является оценка современного состояния финансовой стабильности в экономических субъектах республики и определение направлений ее совершенствования на основе анализа системы коэффицентных показателей, определяемых на основе финансовой отчетности по результататм деятельности компании, метод рейтинговой оценки, оценка вероятности банкродства.

Методология исследования – системный подход, фундаментальный анализ и адекватная информация.

Прикладное значение – возможности использования в качестве научно-теоретического источника в процессе анализа финансовой стабильности субъектов экономики.

Результаты исследования – были оценены направления развития методики анализа финансовой устойчивости экономических субьектов республики в современных условиях.

Оригинальность и научная новизна исследования – Совершенствование методологии и метотдики анализа финансовой стабильности в Азербайджане.

Ключевые слова: финансовая стабильность, платежеспособность, оценка финансовой устойчивости, оценка рейтинга.

Emin Rahib Kazimov
Ph.D student at the Azerbaijan State University of Economics

Analysis and assessment of the financial stability of an enterprise as a means of improving the efficiency of its activities

Summary

The purpose of the study is - to assess the current state of financial stability in the economic entities of the republic and identify directions for its improvement, based on the analysis of the system of coefficient indicators determined on the basis of financial statements based on the results of the companies activities, the rating assessment method, and the assessment of the probability of bankruptcy.

The methodology of the research – a systematic approach, fundamental analysis and adeguate information.

The practical importance of the research – the possibility of using it as a scientific and the operetical source in the process of analyzing financial sustainability in economic entities.

The results of the research – the development directions of financial stability analysis in economic entities of the republic in modern conditions were assessed.

The originality and scientific novelty of the research – improvement of the methodology and techniques of financial stability analysis in Azerbaijan.

Key words: financial stability, solvency, assessment of financial sustainability, rating assessment.